**“Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. yerli və xarici ekspertləri, habelə beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə, aşağıdakıları doqquz ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.3.1. elektrik qurğularının quraşdırılması qaydasını;

2.3.2. elektrik və istilik qurğularının texniki istismar qaydasını;

2.3.3. elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası qaydasını;

2.3.4. elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması qaydasını;

2.3.5. yanacaq ehtiyatının maliyyələşdirilməsi, yaradılması, qorunması, istifadəsi, həcmi və uçotunun həyata keçirilməsi qaydasını;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 iyul 2018-ci il
№ 204

Azərbaycan Respublikası
Prezidentinin
2018-ci il 16 iyul tarixli 204
nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi**

**QAYDASI**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində (bundan sonra — müvafiq sahə) nəzarətin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Müvafiq sahədə nəzarətin məqsədi vətəndaş məmnunluğunun, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin və əlçatanlığının daha da artırılmasını, onların etibarlı, fasiləsiz, keyfiyyətli və təhlükəsiz elektrik və istilik enerjisi, habelə qaz ilə təchiz edilməsini, nəzarət edilən subyektlər tərəfindən müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların tələblərinə əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

1.3. Müvafiq sahədə nəzarət edilən subyektlər aşağıdakılardır:

1.3.1. elektrik və istilik enerjisinin istehsalçıları, ötürücüləri, *nəql edənləri*,

paylayıcıları və istehlakçıları (məişət abonentləri istisna olmaqla);[1]

1.3.2. qazın istehsalı, emalı, saxlanması, nəqli, paylanması, satılması, mayeləşdirilməsi, həmçinin qaz qurğularının quraşdırılması, boru kəmərlərinin tikintisi, istifadəsi, sınağı və sertifikatlaşdırılması fəaliyyətini həyata keçirənlər və istehlakçılar.

1.4. Müvafiq sahədə nəzarəti Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi (bundan sonra – Agentlik) həyata keçirir.

1.5. Agentlik tərəfindən müvafiq sahədə sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan nəzarət tədbirləri “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

1.6. Agentlik enerji təchizatının etibarlılığını təmin etmək məqsədi ilə müvafiq sahədə fəaliyyət göstərən dövlət müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada yanacaq ehtiyatının maliyyələşdirilməsinə, yaradılmasına, qorunmasına, istifadəsinə, həcminə və uçotunun həyata keçirilməsinə nəzarət edir.

## 2. Elektrik və istilik enerjisi təchizatı sahəsində nəzarətin təşkili

2.1. Elektrik və istilik enerjisi təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı Agentliyin aşağıdakı səlahiyyətləri vardır:

2.1.1. elektrik və istilik enerjisi təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin hər il üzrə gəlir və xərclər smetalarının razılaşdırılmasında və onların icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. elektrik və istilik enerjisi təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin enerji resurslarından səmərəli istifadəsinə *və enerji effektivliyinə*, habelə energetika sahəsində fəaliyyətin ətraf mühitə mənfi təsirinin qarşısının alınması və ya azaldılması *məqsədilə “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” və “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının qanunlarına* uyğun tədbirlər görülməsinə nəzarət etmək;[2]

2.1.3. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada yoxlamalar aparmaq;

~~2.1.4. tikilən, yenidən qurulan obyektlərin layihə sənədlərinin, həmçinin sahibkarın müraciəti əsasında, fəaliyyətdə olan obyektlərin enerjidən səmərəli istifadə üzrə ekspertizasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirmək;~~[3]

2.1.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək.

*2.1-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktının verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.*[4]

2.2. *Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinə* dair tələblərə əməl olunmasına nəzarət həyata keçirilərkən Agentlik aşağıdakıları araşdırır:[5]

2.2.1. dövlət müəssisələrində elektrik və istilik enerjisindən istifadə üzrə istehlak limitlərinə əməl olunması;

2.2.2. elektrik və istilik enerjisi təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində hər il üçün yanacaq-enerji resurslarının istifadəsi, itkisi və texnoloji sərfi normalarına əməl edilməsi, bu normaların azaldılması üzrə tapşırıqların, habelə elektrik və istilik enerjisinə qənaət planı üzrə təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi;

2.2.3. elektrik və istilik enerjisi təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrdə enerji istehsalına sərf olunan yanacaq normalarının azaldılması məqsədi ilə tədbirlərin həyata keçirilməsi;

2.2.4. elektrik və istilik enerjisi təchizatı şəbəkələrində, habelə enerji verilməsində, qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qarşısının alınması üçün təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi;

2.2.5. istehlak olunan elektrik və istilik enerjisinə görə hesablaşmaların müvafiq sayğaclar vasitəsilə aparılması;

*2.2.6. effektivlik potensialının qiymətləndirilməsi əsasında enerji effektivliyinin təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi.*[6]

2.3. Agentlik tərəfindən bu Qaydanın 2.1.5-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək üçün texniki baxış sifarişçilərin təqdim etdiyi *ərizə və* aşağıdakı sənədlər əsasında keçirilir:[7]

2.3.1. enerji təchizatı müəssisəsinin və ya dövlət elektroenergetika müəssisəsinin verdiyi texniki şərtlər;

2.3.2. ~~*Agentlik və*~~ enerji təchizatı müəssisəsi ilə razılaşdırılmış enerji təchizatı layihəsi; [8]

2.3.3. tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;

2.3.4. elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti;

2.3.5. kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;

2.3.6. transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;

2.3.7. elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı;

2.3.8. elektrik sayğacının quraşdırılması aktı;

*2.3.9. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində göstərilən sənədlər.*[9]

2.4. Agentlik bu Qaydanın 2.1.5-ci yarımbəndində nəzərdə tutulmuş halda texniki baxış keçirərkən aşağıdakılar müəyyən edilir:

2.4.1. elektrik xətlərinin çəkilməsinin və tikinti-quraşdırma işlərinin texniki şərtlərin və enerji təchizatı layihəsinin tələblərinə uyğunluğu;

2.4.2. elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin elektrik qurğularının quraşdırılması qaydalarının tələblərinə uyğunluğu.

*2.5. Bu Qaydanın 2.4.1-ci və 2.4.2-ci yarımbəndlərində nəzərdə tutulmuş uyğunluq halları müəyyən edildiyi təqdirdə, Agentlik istismara buraxılış aktının verilməsi üçün dövlət rüsumunu ödəməsi vəzifəsi barədə sifarişçiyə şifahi və ya yazılı formada məlumat verir. Sifarişçi bu barədə məlumat aldığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəyir və ödənişi təsdiq edən sənədi Agentliyə təqdim edir. Sifarişçi dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənədi təqdim etdikdən sonra istismara buraxılış aktı 2 (iki) iş günündən gec olmayaraq, Agentliyin rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilərək sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.*[10]

2.6. Agentlik tərəfindən nəzarət həyata keçirilərkən bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar da araşdırılır:

2.6.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavəsinin 57-ci hissəsində nəzərdə tutulmuş icazəni almış şəxs tərəfindən icazə şərtlərinə əməl olunması;

2.6.2. dövlət elektroenergetika və enerji təchizatı müəssisələri tərəfindən texniki şərtlərin qanunvericiliyə uyğun verilməsi;

2.6.3. elektrik və istilik enerjisi istehsalı və təchizatı müəssisələrində elektrik və istilik enerjisinin istehsalı, ötürülməsi, *nəqli* və paylanması proseslərinin idarə edilməsi, mərkəzi və yerli idarəetmə səviyyəsində dispetçer xidmətlərinin işinin mövcud qaydalara, təlimatlara və digər hüquqi aktların tələblərinə uyğun təşkil olunması; [11]

2.6.4. elektrik enerjisi və güc çatışmazlığı ilə əlaqədar elektrik enerji istehsalı və təchizatı müəssisələrinin tətbiq etdikləri məhdudiyyət və birbaşa açılma qrafiklərinin düzgün tərtib olunması və yerinə yetirilməsi;

2.6.5. elektrik və istilik təchizatı sahələrində qanunvericiliyə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, habelə iqtisadi, texniki və təşkilati tələblərə, təlimatlara əməl olunması;

2.6.6. elektrik və istilik enerjisi istehsalı və təchizatı müəssisələri tərəfindən payız-qış mövsümünə hazırlıq işlərinin aparılması;

2.6.7. elektrik və istilik enerjisinə tələbatın tam ödənilməsi məqsədi ilə təşkilati-texniki tədbirlərin həyata keçirilməsi;

2.6.8. istehlakçılara elektrik *və istilik* enerjisinin verilməsinin dayandırılmasının qanunla müəyyən edilmiş hallarda və qaydada həyata keçirilməsi.[12]

## 3. Qaz təchizatı sahəsində nəzarətin təşkili

3.1. Qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı Agentliyin aşağıdakı səlahiyyətləri vardır:

3.1.1. qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin hər il üzrə gəlir və xərclər smetalarının razılaşdırılmasında və onların icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.1.2. sənaye qaz qurğusunun istismarına icazə vermək;

*3.1.3. müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilmiş məlumatlar əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada qaz qurğularının etibarlı istismarı sahəsi üzrə monitorinq keçirmək;*[13]

3.1.4. qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin enerji resurslarından səmərəli istifadəsinin *və enerji effektivliyinin* təmin edilməsinə, habelə energetika sahəsində fəaliyyətin ətraf mühitə mənfi təsirinin qarşısının alınması və ya azaldılması üzrə müvafiq normalara uyğun tədbirlər görülməsinə nəzarət etmək; [14]

3.1.5. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada yoxlamalar aparmaq;

3.1.6. istehlakçıya satılan qazın keyfiyyət göstəricilərini — tərkibini, sıxlığını, rütubətliliyini, istilik yaratmaq qabiliyyətini və digər göstəricilərini laboratoriya şəraitində və ya xüsusi texniki vasitələrlə yoxlamaq;

3.1.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismara qəbulunda və qaz şəbəkəsinə qoşulmasında, habelə sənaye qaz qurğusu olan istehlakçının qaza tələbatında dəyişiklik baş verdikdə qaz sayğaclarının dəyişdirilməsində iştirak etmək;

~~3.1.8. tikilən, yenidən qurulan obyektlərin layihə sənədlərinin, həmçinin sahibkarın müraciəti əsasında, fəaliyyətdə olan obyektlərin qazdan səmərəli istifadə üzrə ekspertizasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirmək.~~ [15]

3.2. *Qazdan səmərəli istifadə və enerji effektivliyinə* dair tələblərə əməl olunmasına nəzarət həyata keçirilərkən Agentlik aşağıdakıları araşdırır: [16]

3.2.1. dövlət müəssisələrində qazın istehlakı limitlərinə əməl olunması;

3.2.2. qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində hər il üçün qazın istifadəsi, itkisi və texnoloji sərfi normalarına əməl edilməsi, bu normaların azaldılması üzrə tapşırıqların, habelə qaza qənaət planı üzrə təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi;

3.2.3. qazpaylayıcı şəbəkələrdə, habelə qaz verilməsində, qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qarşısının alınması üçün təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi;

3.2.4. istehlak olunan təbii qaza görə hesablaşmaların müvafiq sayğaclar vasitəsilə aparılması;

3.2.5. qazdan səmərəli və qənaətlə istifadə olunması məqsədi ilə təşkilati-texniki tədbirlərin həyata keçirilməsi.

3.3. Agentlik tərəfindən bu Qaydanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq texniki baxış sifarişçilərin təqdim etdiyi *ərizə və* aşağıdakı sənədlər əsasında həyata keçirilir: [17]

3.3.1. qaz paylayıcısının verdiyi texniki şərt;

3.3.2. ~~*Agentlik və*~~ qaz paylayıcısı ilə razılaşdırılmış qaz təchizatı layihəsi;

3.3.3. tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;

3.3.4. buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair akt;

3.3.5. quraşdırılmış sənaye qaz qurğularının texniki pasportları;

3.3.6. qaz sayğacının quraşdırılması aktı;

*3.3.7. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində göstərilən sənədlər.* [18]

3.4. Agentlik tərəfindən bu Qaydanın 3.1.2-ci yarımbəndində nəzərdə tutulmuş halda texniki baxış keçirilərkən aşağıdakılar müəyyən edilir:

3.4.1. tikinti-quraşdırma işlərinin texniki şərtlərin və qaz təchizatı layihəsinin tələblərinə uyğunluğu;

3.4.2. tikinti-quraşdırma işlərinin tikinti norma və qaydalarına uyğunluğu.

3.5. Bu Qaydanın 3.4.1-ci və 3.4.2-ci yarımbəndlərində nəzərdə tutulmuş uyğunluq halları müəyyən edildiyi təqdirdə, icazə Agentliyin rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilərək sifarişçiyə təqdim edilir.

3.6. Agentlik tərəfindən nəzarət həyata keçirilərkən bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar da araşdırılır:

3.6.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavəsinin 62-ci hissəsində nəzərdə tutulmuş icazəni almış şəxs tərəfindən icazə şərtlərinə əməl olunması;

3.6.2. qaz təchizatı sahəsində qanunvericiliyə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, habelə iqtisadi, texniki və təşkilati tələblərə, təlimatlara əməl olunması.

3.7. Agentlik tərəfindən qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin fəaliyyətinə nəzarət həyata keçirilərkən bu Qaydanın 3.2-ci və 3.6-cı bəndlərində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar da araşdırılır:

3.7.1. qaz paylayıcısı tərəfindən qaz təchizatı üçün texniki şərtlərin qanunvericiliyə uyğun verilməsi;

3.7.2. qaza olan tələbatın tam ödənilməsi məqsədi ilə təşkilati-texniki tədbirlərin həyata keçirilməsi;

3.7.3. istehlakçılara qazın verilməsinin dayandırılmasının qanunla müəyyən edilmiş hallarda və qaydada həyata keçirilməsi;

3.7.4. qazın istehsalı, emalı, saxlanması, nəqli və istehlakı haqqında uçot və hesabatın qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun aparılması;

3.7.5. qaz paylayıcısı tərəfindən təmir-profilaktika işlərinin illik iş planında göstərilən müddətlərdə aparılması;

3.7.6. istehlakçıya verilən qazın həcminin və dəyərinin, həmçinin istismarda olan qaz qurğularının tam və dəqiq uçotunun aparılması;

3.7.7. istehlakçılara qazın verilməsində təzyiq rejimlərinə əməl edilməsi;

3.7.8. payız-qış mövsümünə hazırlıq işlərinin aparılması.

## 4. Nəzarətin nəticələrinin rəsmiləşdirilməsi

Nəzarətin nəticələri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada rəsmiləşdirilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 iyul 2020-ci il tarixli **1116** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 iyul 2020-ci il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №7, maddə 896)**
2. 13 iyul 2021-ci il tarixli **1395** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyul 2021-ci il, № 145, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 729)**
3. 20 avqust 2021-ci il tarixli **1434** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 926)**
4. 29 dekabr 2021-ci il tarixli **1540** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1405)**
5. 8 aprel 2022-ci il tarixli **1660** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 9 aprel 2022-ci il, № 72, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 4, maddə 321)**
6. 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)**
7. 25 iyul 2022-ci il tarixli **1761** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyul 2022-ci il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 7, maddə 750)**
8. 20 aprel 2023-cü il tarixli **2112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 21 aprel 2023-cü il, № 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 4, maddə 497)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.3.1-ci yarımbəndinə "**ötürücüləri**" sözündən sonra "**, nəql edənləri**" sözləri əlavə edilmişdir.

[2] 30 iyul 2020-ci il tarixli **1116** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 iyul 2020-ci il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №7, maddə 896)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.1.2-ci yarımbəndində "**üzrə müvafiq normalara**" sözləri "**məqsədilə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" və "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının qanunlarına**" sözləri ilə əvəz edilmişdir.

20 avqust 2021-ci il tarixli **1434** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 926)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nda 2.1.2-ci yarımbəndə "**istifadəsinə**" sözündən sonra "**və enerji effektivliyinə**" sözləri əlavə edilmişdir.

[3] 20 avqust 2021-ci il tarixli **1434** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 926)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.1.4-cü yarımbəndi ləğv edilmişdir.

[4] 29 dekabr 2021-ci il tarixli **1540** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1405)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"na yeni məzmunda 2.1-1-ci bənd əlavə edilmişdir.

[5] 20 avqust 2021-ci il tarixli **1434** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 926)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2-ci bəndində "**Enerjiyə qənaət və enerji resurslarından səmərəli istifadəyə**" sözləri "**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinə**" sözləri ilə əvəz edilmişdir.

[6] 20 avqust 2021-ci il tarixli **1434** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 926)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 2.2.6-cı yarımbənd əlavə edilmişdir.

[7] 13 iyul 2021-ci il tarixli **1395** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyul 2021-ci il, № 145, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 729)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.3-cü bəndinə "**təqdim etdiyi**" sözlərindən sonra "**ərizə və**" sözləri əlavə edilmişdir.

[8] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.3.2-ci və 3.3.2-ci yarımbəndlərindən "**Agentlik və**" sözləri çıxarılmışdır.

[9] 13 iyul 2021-ci il tarixli **1395** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyul 2021-ci il, № 145, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 729)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 22.3.8-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.3.9-cu yarımbənd əlavə edilmişdir.

[10] 29 dekabr 2021-ci il tarixli **1540** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1405)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.5-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.5. Bu Qaydanın 2.4.1-ci və 2.4.2-ci yarımbəndlərində nəzərdə tutulmuş uyğunluq halları müəyyən edildiyi təqdirdə, istismara buraxılış aktı Agentliyin rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilərək sifarişçiyə təqdim edilir.~~

[11] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.6.3-cü yarımbəndinə "**ötürülməsi**" sözündən sonra "**, nəqli**" sözü əlavə edilmişdir.

[12] 25 iyul 2022-ci il tarixli **1761** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyul 2022-ci il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 7, maddə 750)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.6.8-ci yarımbəndinə "**elektrik**" sözündən sonra "**və istilik**" sözləri əlavə edilmişdir.

[13] 8 aprel 2022-ci il tarixli **1660** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 9 aprel 2022-ci il, № 72, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 4, maddə 321)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1.3-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.1.3. qazdan səmərəli istifadəni, məişət qaz qurğularının etibarlı istismarını təmin etmək məqsədi ilə həmin qurğulara və qazpaylayıcı şəbəkələrə texniki baxış keçirilməsində iştirak etmək;~~

20 aprel 2023-cü il tarixli **2112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 21 aprel 2023-cü il, № 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 4, maddə 497)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1.3-cü yarımbəndinə "**qaydada**" sözündən sonra "**qaz qurğularının etibarlı istismarı sahəsi üzrə**" sözləri əlavə edilmişdir.

[14] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1.4-cü yarımbəndinə "**istifadəsinin**" sözündən sonra "**və enerji effektivliyinin**" sözləri əlavə edilmişdir.

[15] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.1.8-ci

yarımbəndi ləğv edilmişdir.

[16] 16 iyul 2022-ci il tarixli **1750** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 17 iyul 2022-ci il, № 148, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 739)** ilə “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 3.2-ci bəndində “**Qaza qənaət və qazdan səmərəli istifadəyə**” sözləri “**Qazdan səmərəli istifadə və enerji effektivliyinə**” sözləri ilə əvəz edilmişdir.

[17] 13 iyul 2021-ci il tarixli **1395** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 iyul 2021-ci il, № 145, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 729)** ilə “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 3.3-cü bəndinə “**təqdim etdiyi**” sözlərindən sonra “**ərizə və**” sözləri əlavə edilmişdir.

[18] 13 iyul 2021-ci il tarixli **1395** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 iyul 2021-ci il, № 145, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 729)** ilə “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 3.3.6-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.3.7-ci yarımbənd əlavə edilmişdir.